

*Zakir Bağır*

# Düyünlər

## 23 il "Leninçi" indiki "Lənkəran" qəzetinin redaktoru işləmiş şair Şəkər Aslanın xatirəsinə

**Povest**

Qapını açıb içəri girdim. Ağsaçlı redaktoru-muz-Şirin müəllim redaksiyaya daxil olmuş məktublarla tanış olur, dərkənar qoyurdu. O məni görcək başını qaldırdı. Yer göstərdi. Əyləşdim.

-Bilirsən səni niyə çağırtdırmışam? Cavab gözləmədən iki məktubu götürüb mənə göstərdi:

Bizim ştatdankənar muxbirimizdən yazıblar. Birincisi rayon idman komitəsinin sədri göndərib. İmzalıdır. Məktuba komitənin möhürünü də vurub: Rəcəb Eldarovun sizin redaktor olduğunuz "Bədən tərbiyyəsi" jurnalında ştatdankənar muxbir işləməsini biz rayon rəhbərləri ilə razılaşıb təsdiq etmişik. İndi isə isdəmirik o ştatdankənar muxbir işləsin. Rəcəb Eldarov bizimlə məsləhətləşməmiş heç nə yazmazdı. İndi isə bizi saya salmır, bizdən xəbərsiz müəsisələrə gedir. Sizdən xahiş edirik onu ştatdankənar muxbirlikdən azad edəsiniz.

Redaktor ikinci məktubu göstərdi:

-İmzasıdır. Jurnalımızın ştatdankənar muxbiri bir nömrəli rüşfətxordur. Getdiyi idarələrdə rüşvət tələb edir. Verməyəndə tənqid yazır. Sizə bir faktı yazacağam. "1 May" sovxozu rayonumuzun qabaqcıl kənd təsərrüfatı müəsisələrindən biridir. Sovxoz planlarını artıqlaması ilə yerinə yetirib. Amma sizin ştatdankənar muxbiriniz həmin müəsisənin idman işini tənqid edib. Niyə görə? Ona görə ki muxbiri razı salmayıblar. Siz Rəcəb Eldarov haqqında ciddi tədbir görməsəniz və bu barədə jurnalınızda məlumat verməsəniz, yuxarı təşkilatlara yazacağam.

İmran müəllim məktubları mənə verdi bir siqaret yandırıb otaqda var-gəl etməyə başladı.

Sükut çox davam etmədi.

-Məncə burada nə isə bir sir var. Redaktor məktublara işarə etdi. Qabaqlar Rəcəb Eldarov Haqda belə məktublar yazılmırdı. Son zamanlar Eldarov tənqidə daha çox meyl edir. Bəlkə bu, bəzi yoldaşların xoşuna gəlmir?

İmran müəllim yenə cavab gözləmədi:

-Bu axşam yola düş. Məsələ ilə ətraflı tanış ol. Redaktorun kabinetindən çıxıb bilet üçün vağzala getdim.

İlk dəfə idi ki, belə məktubları yoxlamalı idim. Həyəcan keçirirdim. Dəmir yol vağzalına gələndə qatarın yola düşməsinə az qalırdı.

Diplomat çantamı yatacağın altına qoyandan sonra pəncərədən çölə baxdım. Görəsən yol yoldaşlarım kim olacaq? Fikirləşdim.

Qatarın yola düşməsinə bir neçə dəqiqə qalırdı. Kimsə kupenin qapısını döydü. Cavan bir oğlan içəri girdi.

-11 və 13-cü yerlər buradadır?

Cavab gözləmədən geri çevrildi:

-Keçin

Yaşlı bir qadın cavan bir qızla içəri girdi. Şeylərini yerbəyer etdilər.

-Siz də Günəşliyə gedirsiniz? Oğlan soruşdu

-Düz tapmısınız.

-Anamla bacım mənə dəyməyə gəlmişdilər. Sabah-birisi gün zaçotlar başlanır. Onları rayona apara bilmərəm. Anamgili sizə tapşırıram vağzala kimi. Atam vağzalda gözləyəcək.

Tələbə oğlan anası və bacısı ilə görüşdü. Mənə sağol deyib getmək isdəyirdi ki, yaşlı qadın dedi:

-Dərslərinə fikir ver bala. Deməsinlər sucu Əsədin oğlu böyük məktəbə girdi amma oxuya bilmədi.

-Arxayın ol ana. Başınızı aşağı eləmərəm. Yaxşı yol.

Oğlan getdi.

-Şəhər adamı yaman yorurmuş. Kənddə nə qədər isdəyirsən gəz, yorğunluğunu hiss etməzsən. Amma şəhər...

Qadın narazılıqla başını buladı.

-Deyəsən möhkəm yorulmusunuz

-Elədir, bala elədir.

Bələdçi biletləri yığandan sonra ağları gətirdi. Onlar yerlərini düzəltməyə başladılar. Çölə çıxdım. Bir siqret yandırdım. Mən içəri girəndə onlar yığmışdırlar. Yuxarı qalxdım. Amma yuxum gəlmirdi. Məktublar barəsində düşünməyə başladım.

Bir vaxtlar mənim haqqımda da belə imzasız məktublar yazılmışdı.

... Ali məktəbi təzəcə bitirmişdim. İşə başlamalı idim. Təyinat kağızını alan kimi idarəyə gəldim. İşlə tanış oldum. Komendantla görüşüb yataqxanada yer aldım. Məqsədim ev sahibimlə bir dəfəlik haq-hesabı çürüdüb, şeylərimi (tələbə babanın bir çamadandan başqa nəyi olacaqdı ki?) yataqxanada qoymaq idi. Bir aylıq istirahətdən sonra işə başlayacaqdım.

İdarədə işimi sahmana salandan sonra kirayə qaldığım evə gəldim. Ev sahibəm həyətdə oturmuşdu, çay içirdi. Salam verdim.

-İndiyə kimi haralardasan oğul?

Məsələni danışdım. O, bir qədər tutuldu. Üzə vurmasa da deyəsən mənim yataqxanaya köçməyimi isdəmirdi.

Haçandan-haçana:

-Hə,hə olar, lap yaxşı!

Otağa girdim. Yır-yığış etdim. Çölə çıxanda mənə bir teleqram verdi.

-Səhər gəlib.

Baxdım. Kiçik qardaşım vurmuşdu. Atam ağır xəstə olduğu üçün məni təcili rayona çağırırdı.

Ürəyim sıxıldı: Bəlkə atamın baçına bir iş gəlib? Müharibə əlili olan atam tez-tez ürəyindən şikayətlənirdi. Kişi çox əziyyət çəkmişdi.müharibədə üç dəfə ağır yaralanan atam anasını, məndən böyük iki oğlunu və qızını o ağır illərdə itirmişdi.

Səbr edə bilmədim. Avtomat telefon stansiyasına getdim. Rayonla danışdım. Qabaqca cavab gəlmədi. Bir neçə dəqiqədən sonra qardaşımın səsi gəldi.

-Karvansarada bir maşına min gəl. Puldan qorxma burda sürücünün haqqın verərik.

Qardaşım dəsdəyi qoydu.

-Du... du...

Deyilənlərə əməl etdim. Həyətə girəndə çadır gördüm. Ağlaşma səsi eşitdim. Atam vəfat etmişdi. Ağlamaq isdəyirdim. Hönkürmək, ürəyimi boşaltmaq isdəyirdim. Bacarmırdım. Elə bil içimi don vurub göz yaşımı qurutmuşdu.

...Bir neçə gündən sonra Bakıya qayıtdım. Artıq şəhərdə qala bilməzdim. Kiçik qardaş və bacılarım evdar anam ümidlərini mənə dikmişdilər. Rayona qayıdıb bir işin qulpundan yapışmalı idim.

... Genişoğlu məni çox soyuq qarşıladı. Heç oturmaq üçün yer də göstərmədi. Telefonla danışdı, zəngi basıb katibəsini çağırdı. Bəzi tapşırıqlar verdi.

Məni tər basmışdı. Kabinetdən tez çıxmaq, bir daha buralara ayaq basmamağı qət etdim.

Hirsimdən dişlərimi bir birinə sıxdım.

-Ay yoldaş bəs siz nə istəyirsiz? -Genişoğlu məni ilk dəfə görürmüş kimi soruşdu.

Ali məktəb diplomumu onun qarşısına qoydum. Məsələni danışdım.

-Cavan oğlan, biz təyinatla gələnləri yerləşdirə bilmirik. Qaldı ki, azad təyinatla gələn olsun.

Mübahisə ütmək yersiz idi. Atamı xatırladım. Sağ olsaydı Genişoğlu mənə belə münasibət bəsləməzdi. Ürəyim sıxıldı....

Aşağı düşmək istəyirdim ki, kimsə əlini çiynimə qoydu. Rayon qəzetinin redaktoru, yazıçı Səyyad Rüstəm idi. Hələ orta məktəbdə oxuyarkən onunla tanış idim.Mənim bir neçə məqaləmi qəzetdə vermişdi. Şahmatçı kimi haqqımda oçerk də yazmışdı.

-Nə əcəb buraya gəlmisən?

Gəlişimin səbəbini söylədim. Səyyad Rüstəm dinmədi, bir siqaret çıxardıb yandırdı. Acı tüstüsünü şirin-şirin ciyərlərinə çəkdi.

-İndi iclasa gedirəm. Sabah səhər redaksiyaya gələrsən, söhbət edərik.

... Səyyad müəllim məni görcək ayağa qalxdı. İrəli gəlib onunla görüşdüm. Yer göstərdi oturdum.

-Sənin bir idmançı kimi naliyyətlərinlə fəxr edirəm. Qələmin də pis deyil. Respublikamızın qəzet və jurnallarında idman mövzusunda dərc olunmuş oçerklərini maraqla oxuyuram. Bu mövzuda bizim qəzet üçün də yaz.

O, əməkdaşlarını çağırdı. Məni onlarla tanış etdi:

-Bu gündən idman yazılarını o hazırlayacaq.

Rayon qəzeti çoxda böyük deyildi. Qəzetdə 3 şöbə partiya həyatı, kənd təsərrüfatı və məktublar şöbələri fəaliyyət göstərirdi. Dramaturq Xalisi təşkilatçı-muxbir olduğu yerli radio verlişləri də qəzetin nəzdindədi.

Qəzetdə müstəqil idman şöbəsi olmadığı üçün bu mövzuda yazıları məsul katib və zəhmətkeş məktubları şöbəsi hazırlayırdı. Yazılan xəbərlər və zarisovkalar aşağı səviyyədə olurdu. Respublika qəzetlərində dəfələrlə bu barədə replika dərc olunmuşdu.

Məktublar şöbəsinin müdiri idman mövzusunda oxucuların yazdığı bir neçə xəbəri mənə verdi. Növbəti nömrə üçün hazırlamalı idim. Xəbərləri hazırlayandan sonra rayonun idman təşkilatları ilə əlaqə saxladım. Ayrı-ayrı müəssisələrin idman həyatından oçerk, zarisovka və felyeton yazmaq isdəyirdim. Mənə bir neçə ünvan dedilər. Zəhmətkeş məktubları şöbəsinin müdiri xəbərdarlıq etdi:

-Nə badə tənqidə keçəsən ha. Genişoğlunun əlindən qurtara bilməzsən.

İşlərim pis getmirdi. Qəzet vaxtaşırı rayonun idman həyatını işıqlandırdı. Redaktor mənə bildirdi ki, təkcə bizim qəzetimiz üçün yox, respublika mətbuatına da yaz.

Onun sözləri məni ruhlandırdı. "Bədən tərbiyyəsi" jurnalı ilə sıx əlaqə saxlamağa başladım.

... Günlərin bir günü qəzetdə öz yazımın altında korrektorun imzasını görəndə özümü itirdim.

Redaktor müavini məni yanına çağırdı. Həmişə qaşqabaqlı görünən, replika ilə danışmağı çox sevən müavin şən idi.

-Zaman deyə o, birbaş mətləbə keçdi. -Yazıların yaxşıdır. Təzə ştat gələn kimi səni işə götürəcəyəm. Həm bizdə həmdə respublika mətbuatında vaxtaşırı çıxış edərsən. Sənin xırda - para yazılarını korrektorumuzun imzası ilə dərc edəcəyik. Bilirsəndə o yoldaş Genişoğlunun kiçik qardaşıdır. Jurnalist olmaq istəyir. Jurnalistika fakultəsinə girmək üçün isə yazıpozu olsun gərək. Yoxsa sənədlərini qəbul etməzlər. Əlbətdə qonorar sənin olacaq. Redaktor da belə məsləhət bilir.

Razılaşdım. Bir müddət korrektorun imzası qəzetdə göründü...

...Respublikanın bir neçə mötəbər idarəsi rayon qəzetləri arasında idman mövzusunda çap olunmuş yazıların müsabiqəsini keçirirdi. Müsabiqədə bizim rayon qəzeti də iştirak edirdi.

Tərəvəzçilik savxozlarının birinin bədən tərbiyəsi və idman həyatı haqqında oçerk yazmışdım. Oçerki qəzetin bir neçə əməkdaşlarına oxudum. Qeydlərini dedilər.

Təzədən işləyib redaktor müavininə (redaktor məzuniyyətdə idi) təqdim etmək istəyirdim. Seyranov kiminləsə telefonla danışırdı.

-Arxayın olun, yoldaş Genişoğlu. Sizin kiçik qardaşınız müsabiqənin baş mükafatını alacaq. Hələ zəmanətdə verəcəyik.

Redaktor müavini dəstəyi yerə qoydu.

-İçəri girəndə qapını döymək lazımdır.

-Qapı açıq idi.

-Nə gətirmisən?

-Oçerk

-Oçerk? Heç görmüsən qəzetimizdə idmandan oçerk getsin? Yaxşı, qoy, baxarıq. Amma bundan sonra kabinetimə gələndə qapını döyərsən.

-Oldu.

Otaqdan çıxdım.

...Seyranov iclas çağırmışdı. Əsas və yeganə məruzəçi özü idi. Yarım saata kimi qəzetin keyfiyyətindən danışandan sonra bildirdi ki, qəzetimizin iki əməkdaşı (əlbəttə, birisinə hələ əməkdaş demək olmaz.

O, ştatdankənar muxbirimizdir.) mükafata layiq görülmüşlər. İnanıram ki, bu, ilk naliyyət olmayacaq. Respublikamızın üç mötəbər idarəsi idman mövzusunda müsabiqəyə yekun vurmuşdur. Bizim hamımızın sevimlisi, müəllimimiz Genişoğlunun kiçik qardaşı, həmkarımız, yaşda kiçik, qəlbi böyük Genişoğlu ən böyük mükafata-prizə və diploma layiq görülmüşdür. İcazə verin istedadlı idman jurnalistimizə mükafatları təqdim edib, yaradıcılıqda uğurlar arzulayım.

**(ardı növbəti sayımızda)**